## Yeni nəşrlər

# "Qaranlıqdan işığa"

Azərbaycanın görkəmli maarifçilərindən olmuş, yazıçı, aktyor, teatrşünas, tərcüməçi və jurnalist Əsgər ağa Goraninin (Adıgözəlovun) fəaliyyəti və yaradıcılığından bəhs edən **"Qaranlıqdan işığa"** adlı kitabın müəllifi ədibin irsinin araşdırıcısı Gülhüseyn Kazımlı, redaktoru və ön sözün müəllifi Milli Məclisin deputatı, akademik Rafael Hüseynovdur.

Əsgər ağa Gorani Azərbaycanın səhnə sənəti tarixində professional teatrımızın bünövrəsini qoyanlardan biri, mətbuat tariximizdə "Əkinçi"nin ən fəal müxbiri, ədəbiyyat tariximizdə "Qocalıqda yorğalıq" pyesinin və "Qara yel" romanının müəllifi, eyni zamanda bir sıra bədii əsərlərin tərcüməçisi, hüquqşünas və ictimai xadim kimi tanınır. İctimai fikir tariximizin inkişafında onun əvəzsiz xidmətləri olub.

Qeyd edək ki, Mirzə Fətəli Axundzadənin və Həsən bəy Zərdabinin mənəvi övladlarından biri olan Əsgər ağanın itmiş sayılan "Qocalıqda yorğalıq" pyesi və M.Lermontovdan tərcümə etdiyi "Yel gəmisi" balladası bu günlərdə Gülhüseyn Kazımlının axtarışları sayəsində tapılıb. Adıçəkilən pyes və Əsgər ağanın Lermontovdan tərcümə etdiyi "Yel gəmisi" əsəri də "Qaranlıqdan işığa" kitabına daxil edilib.




***"Azərbaycan"***